BIBLIOTEKA KOMBËTARE

**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası**

**ilə Albaniya Milli Kitabxanası arasında**

**Əməkdaşlıq haqqında Memorandum**

Bundan sonra "Tərəflər" adlandırılacaq M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Albaniya Milli Kitabxanası

İki kitabxana arasında mövcud əlaqələri daha da gücləndirmək niyyəti və müvafiq əməkdaşlığı inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, elmi biblioqrafiya, nadir kitabların bərpa və konservasiyası, kadr hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

**Maddə 2**

Tərəflər kitabxana elminin, kitabxana-informasiya sahəsinin inkişaf perspektivləri, nailiyyətləri barədə qarşılıqlı təcrübə və bilik əldə etmək məqsədilə aşağıdakı sahələr üzrə əlaqələri inkişaf etdirəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;
- məlumat bazalarının idarə edilməsi;
- kitab və kitab nəşri sahəsində elmi tədqiqatların aparılması;
- nadir kitabların mühafizə, bərpa və konservasiyası:
- kitabxana arxivlərinin keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə nadir kitabların və əlyazmaların rəqəmsal surətləri daxil olmaqla beynəlxalq kitab mübadiləsinin inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana elminin bütün sahələrində mütəxəssislərin təcrübə mübadiləsinin aparılması, treninq kursları, seminarlar, elmi konfranslar və simpoziumların keçirilməsi.

**Maddə 3**

Tərəflər bir-birinin kitabxanaçılarını maksimum yeddi (7) günlük müddət olmaq şərtilə qəbul etməyə razılaşırlar.

Mehmanxana, qidalanma, daxili nəqliyyat qəbul edən ölkə tərəfindən təmin ediləcək, beynəlxalq nəqliyyat xərcləri isə göndərən ölkə tərəfindən qarşılanacaqdır. Səfər edəcək kitabxanaçıların sayı hər il qarşılıqlı şəkildə müəyyən ediləcəkdir.

**Maddə 4**

Bu Memorandum beş (5) il müddətinə bağlanılır və Tərəflərdən biri onun müddətinin bitməsinə ən azı üç (3) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti beş (5) il müddətinə uzadılır.

**Maddə 5**

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Anlaşma Memorandumuna dəyişikliklər edilə bilər.

**Maddə 6**

Bu Memorandum imzalandığı tarixdə qüvvəyə minir.

Bu Memorandum Bakı şəhərində "06" oktyabr 2022-ci il tarixində iki əsl nüsxədə olmaqla, hər biri Azərbaycan, alban və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər etibarlıdır. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

M.F.Axundov adına
Azərbaycan Milli Kitabxanası
Azərbaycan Respublikası, AZ1000
Bakı şəh., Xaqani küç., 57
Email: contact@anl.az
Tel.: +994 12 493 40 03
Faks: +994 12 498 08 22

Direktor
Prof. Kərim Tahirov

Albaniya Milli Kitabxanası
Sheshi "Skënderbe"
1000 Tiranë
Albania
Email: sekretaria@bksh.al
Tel.: + 355 422 23 843
Faks: + 355 422 23 843

Direktor
Piro Misha